# MÜQAVİLƏ

Bakı ş. "__" __________ 2011-ci il

## I. MÜQƏDDİMƏ

Bir tərəfdən "Bestcomp Group" firması, direktoru Z.K.İbrahimov şəxsində (bundan sonra "Şirkət") və digər tərəfdən ____________________________________________ (bundan sonra "Alıcı") aşağıdakı şərtlər əsasında bu Müqaviləni (bundan sonra "Müqavilə") bağladılar.

## II. MÜQAVİLƏNİN PREDMETİ

2.1. Bu Müqaviləyə görə, "Şirkət" "Alıcı"ya "XALQ KOMPÜTERİ" layihəsi çərçivəsində Əlavə 1A və 1B-də göstərilən Netbook, Notebooklar və ya kompüterdən birini hissə-hissə ödəmə şərti ilə möhlətlə satır. "Alıcı" Əlavə 2-də göstərilən malları da hissə-hissə ödəmə şərti ilə möhlətlə ala bilər.

2.2. Hissə-hissə ödəmə bərabər olmaqla 12 aya həyata keçirilir.

2.3. Bu Müqavilə üzrə aylıq ödəmələr "Ödəniş cədvəli"nə (Əlavə №3) əsasən "Alıcı" tərəfindən AzərPoçtun filiallarına nağd və ya onun müxbir hesabına köçürmə yolu ilə borc müddətində tamamən qaytarılır. Ödəmə on-line olaraq www.xalqkomp.az saytı vasitəsilə də aparıla bilər.

2.4. Hissə-hissə ödəmə, satılan malın təhvil müddətindən başlanır və müddətin sonuncu günü qurtarır.

2.5. Aylıq Ödəmələr "Ödəniş cədvəli"nə uyğun aparılır, ödəmənin hər gecikdirildiyi gün üçün 0.2% cərimə hesablanır.

2.6. "Ödəniş cədvəli" Azərbaycan manatı ilə tərtib edilir.

## III. KREDİTİN TƏMİNATI

3.1. Alınan avadanlığın tam məbləği ödənənə qədər onun mülkiyyət hüququ "Şirkət"də qalır. Tam məbləğ ödəndikdən sonra alınan avadanlığın mülkiyyət hüququ "Alıcı"ya keçir.

3.2. Borcu ödəməyən "Alıcı"lara qarşı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun müvafiq tədbirlər görülür.

3.3. Satılan malın borcu ödənilmədikdə mal "Şirkət"ə geri qaytarılır və ödənilən məbləğlər geri qaytarılmır.

Malın geri qaytarılması məhkəmə vasitəsilə müəyyən edilirsə, bütün məhkəmə xərcləri "Alıcı"nın üzərinə düşür.

## IV. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

### 4.1. "Şirkət"in hüquqları:

4.1.1. Aşağıdakı hallarda Müqaviləni birtərəfli qaydada ləğv edir və borcun vaxtından əvvəl qaytarılmasını tələb edir:

a) "Alıcı"nın əmlak vəziyyəti, bu Müqavilə üzrə pul öhdəliklərinin icra edilməsi tələbi üçün təhlükə yaradan dərəcədə pisləşdikdə;

b) "Alıcı" tərəfindən təqdim edilən məlumat və sənədlərin həqiqətə uyğun olmadığı aşkar edildikdə;

d) "Alıcı" bu Müqavilə üzrə öhdəliklərini icra etmədikdə və ya lazımınca icra etmədikdə.

4.1.2. Bu Müqavilə ilə və (və ya) qanunvericiliklə müəyyən olunan hallarda və qaydada satılan avadanlığa tutma yönəldir.

4.1.3. Bu Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımınca icra etməyi və onların pozulmasına yol verməməyi digər Tərəflərdən tələb edir.

**4.2. "Şirkət"in vəzifələri:**

4.2.1. Bu Müqavilədən irəli gələn pul öhdəliklərinin tam və ya qismən icra edilməsi barədə təsdiqedici sənəd(lər) təqdim etməyi;

4.2.2. "Alıcı"nın tələbi ilə hesab üzrə çıxarışlar verməyi;

**4.3. "Alıcı"nın hüquqları:**

4.3.1. "Şirkət"in əvvəlcədən verilmiş razılığına əsasən borcun qaytarılması üzrə öhdəliyini, vaxtından əvvəl icra gününədək borc qalığını tam və ya qismən vaxtından əvvəl icra edir. Bu zaman "Şirkət" tərəfindən hədiyyə şəklində müvafiq güzəştlər edilir.

4.3.2. Bu Müqavilə ilə üzərinə götürdüyü öhdəlikləri vaxtında və lazımınca icra etməyi və onların pozulmasına yol verməməyi digər Tərəflərdən tələb edir.

**4.4. "Alıcı"nın vəzifələri:**

4.4.1. Avadanlığın alınması üçün digər sənədlərlə yanaşı iş yerindən maaş dərəcəsini təsdiq edən arayışı təqdim etməlidir;

4.4.2. Avadanlıq tələbə və ya şagird üçün alınırsa tələbə biletinin surəti və ya təhsil aldığı yerindən arayış təqdim olunmalı və Əlavə 4 tam şəkildə doldurularaq Müqaviləyə əlavə edilməlidir;

4.4.3. Avadanlığın alınması üçün "Şirkət"ə təqdim olunmuş sənədlərdə və ya Alıcı barədə göstərilən məlumatlarda hər hansı dəyişikliklər baş verərsə onlar barədə müvafiq təsdiqedici sənədlərlə birlikdə dərhal yazılı qaydada bildiriş göndərməlidir;

4.4.4. Bu Müqavilə ilə müəyyən olunan qaydada borcu "Şirkət"ə qaytarmağı, borc və əgər cərimə varsa cərimə üzrə hesablanmış faizləri "Şirkət"ə ödəmək;

4.4.5. Satılan malı qəbul etməyi və borcu "Ödəniş cədvəli"nə əsasən zamanında ödəməyk;

4.4.6. Alınan avadanlığın "Şirkət"in qabaqcadan yazılı razılığı olmadan satmamağı, bağışlamamaq, dəyişdirməmək və girov qoymamaq;

4.4.7. Alınan avadanlığın salamatlığını təmin etmək, üçüncü şəxslərin qəsdlərindən, tələblərindən müdafiə etmək və alınan avadanlığın məhv olması, itirilməsi və ya zədələnməsi halında "Şirkət"ə yazılı məlumat verməki;

4.4.8. Alınan avadanlığın məhv olması, itirilməsi və ya zədələnməsi "Alıcı"nı "Şirkət" qarşısındakı öhdəliklərindən azad etmir.

## V. GECİKDİRİLMİŞ BORC

5.1. "Ödəniş cədvəli"ndə müəyyən edilən hissə-hissə ödəniş (icra) müddətlərində, habelə möhlət müddətində öhdəliklər vaxtında tamamən icra edilmədikdə gecikdirilmiş borc yaranır.

5.2. "Ödəniş cədvəli" ilə müəyyən edilən hissə-hissə ödəniş (icra) müddətinin pozulması ilə bağlı gecikdirilmiş borc üzrə hər hansı ödəniş icra edilərkən həmin ödənişin icra edilmə tarixinədək borc qalığı məbləğinə hesablanmış cərimə və borc üzrə faizlər "Alıcı" tərəfindən mütləq ödənilməlidir. Bu halda "Alıcı" "Ödəniş cədvəli" ilə müəyyən edilən növbəti hissə-hissə ödəniş (icra) muddət(lər)inin qurtarmamağına və hissə-hissə ödəniş (icra) məbləğinin göstəricilərinə istinad edə bilməz.

## VI. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

6.1. Bu Müqavilə üzrə öz vəzifəsini icra etməyən və ya lazımınca icra etməyən Tərəf digər Tərəfə vurduğu zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunan qaydada məsuliyyət daşıyır və qarşı Tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir.

6.2. Bu Müqavilə üzrə 10 (on) gündən 90 (doxsan) günədək gecikdirilmiş borca görə, "Alıcı", hər gecikdirilən gün üçün gecikdirilmiş borcun (əsas borc məbləğinin) 0.2 (sıfır tam onda iki) faizi məbləğində cərimə ödəyir. Ödənişin gecikdirilməsi 60 günü keçdikdə "Şirkət" müvafiq qanunvericiliyə uyğun tədbirlər görmək hüququna malikdir.

6.3. Bu maddədə nəzərdə tutulmuş cərimələr və zərərin əvəzinin ödənilməsi "Alıcı"nı Müqavilə üzrə əsas öhdəliklərin icrasından azad etmir.

## VII. ƏLAVƏ ŞƏRTLƏR

7.1. Bu Müqavilə Tərəflərin imzaları və "Şirkət"in möhürü (ştampı) ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir və "Alıcı" tərəfindən borc, faizlər və digər pul tələbləri üzrə öhdəliklərin "Şirkət"ə icra olunduğu andan qüvvədən düşür.

7.2. "Alıcı" "Şirkət"ə onun ilk tələbi ilə, bu Müqavilə üzrə pul öhdəliyinin icra edilməsi üçün öz əmək haqqından tutmalara etiraz etməməyi barədə öz işəgötürəninə ərizə (əmək haqqından tutmaların məbləği və müddət(lər)i göstərilməklə) ilə müraciət edəcəyini vəd edir.

7.3. Bu Müqavilə ilə müəyyənləşdirilən bütün əlavələr onun ayrılmaz və tərkib hissəsi hesab olunur və Tərəflərin imzaları və "Şirkət"in möhürü (ştampı) ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir və ardıcıllıqla nömrələnir.

7.4. Bu Müqavilə Azərbaycan dilində, 2 (iki) nüsxədə tərtib edilmişdir, nüsxələr eyni hüquqi qüvvəyə malikdir və Tərəflərdən hər birinə bir nüsxə təqdim edilir. Bu nüsxələrdən biri "Şirkət"də, digəri isə "Alıcı"da saxlanılır.

7.5. Bu Müqavilə ilə tənzimlənməyən münasibətlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ hüquqi aktları ilə tənzimlənir.

## VIII. TƏRƏFLƏRİN HÜQUQİ ÜNVANI VƏ REKVİZİTLƏRİ

| | |
|---|---|
| "BESTCOMP GROUP" firması | ______________________________<br>(Şəhər, rayon, kənd) |
| YapıKredi Bank Azərbaycan<br>Kodu: 509987 | ______________________________<br>(İş yeri) |
| VOEN: 9900009021<br>Müxbir hesab: 0137010012944 | ______________________________<br>(Alıcının adı, soyadı və atasının adı) |
| S.W.İ.F.T BİK: KABAAZ22 | ______________________________<br>(Şəxsiyyət vəsiqəsinin nömrəsi) |

Ünvan: Bakı şəhəri, Aşıq-Alı küç. 2A
(Şəhər Bağları və Odlar yurdu Universitetinin yanı)
Telefon: (+99412) 541-47-47 Müştərinin imzası: Tarix:

# ƏLAVƏ 1A.

√ Xüsusi Model: **HP ProBook 4525s AMD Turion** II Dual-Core Mobile Processor P540
(2.4 GHz, 2MB L2 cache) 3 GB 1333 MHz DDR3 SDRAM
320GB HDD SATA II (7200 rpm), 15.6 WXGA BV display, Bag
**Windows 7 Professional**
**585 AZN**

# ƏLAVƏ 2.

☐ əlavə A: **Antivirus Symantec Endpoint Protection**
**4,2 AZN (5,2 Ş.V.)**
VIP modellərələ antivirus proqramı pulsuz verilir.

☐ əlavə B: **Microsoft Office 2007 – 48 manat (ayda cəmi 4 manat ödəməklə)**
**(Microsoft şirkətinin rəsmi lisenziyalaşdırılmış MS-Office-2007-nin tam versiyası, yalnız müəllimlər, tələbələr və şagirdlər üçün)**
VIP modellərələ ofis proqramı pulsuz verilir.

☐ əlavə C: **Azercell Datakart – 84 manat (ayda cəmi 7 manat ödəməklə)**
**(1 il müddətində aylıq 500mb traffik, əlavə hər 1mb qiyməti – 1qəpik)**

☐ əlavə D: **Azerfon 3G+ İnternet Modem – Ayliq 500MB (Ayda 3,33 AZN ödəməklə);**
**İllik 10GB (Ayda 8,83 AZN ödəməklə) (əlavə hər 1mb qiyməti – 3qəpik)**

☐ * əlavə E: **ADSL Modem 1 -port**
**33,6 AZN (41,9 Ş.V.)**

☐ * əlavə F: **ADSL Modem 4-port**
**42 AZN (52,3 Ş.V.)**

☐ * əlavə G: **Wi-Fi ADSL Modem 4-port**
**54 AZN (67,5 Ş.V.)**

☐ əlavə J: **HP Mouse**
**9.90 AZN (12.5 Ş.V.)**

☐ əlavə I: **Pavilion Mouse**
**11.90 AZN (15 Ş.V.)**

* Qeyd : **"Xalq kompüteri" layihəsi iştirakçıları 1 il müddətində Aztelecomnet, Bakinternet, Azdatacom şəbəkəsi vasitəsi ilə aşağıda göstərilən güzəştli şərtlərlə ADSL və Dial-up vasitəsilə internetə qoşula bilərlər.**

**ADSL vasitəsilə:**

256 kb/s - aylıq 10 manat
512 kb/s - aylıq 15 manat
1024 kb/s - aylıq 20 manat

**Dial-Up vasitəsilə:**

1 aylıq limitsiz istifadə - 10 manat
3 aylıq limitsiz istifadə - 30 manat
6 aylıq limitsiz istifadə - 60 manat
1 illik limitsiz istifadə - 100 manat

**ADSL ( yaşadığınız ərazidə texniki imkan olarsa) və ya Dial-up vasitəsilə ilə internetə qoşulma üçün aidiyyəti Telefon Qovşaqları ilə müqavilə imzalanması tələb olunur.**

ƏLAVƏ 3.

**Ödəniş cədvəli.**

| Alıcı | Tarix: | Məbləğ, Ş.V. | Qeyd |
|---|---|---|---|
| | | | |
| Adı: | __/__/2011 | | |
| | __/__/2011 | | |
| Soyadı: | __/__/2011 | | |
| | __/__/2011 | | |
| Ünvan: | __/__/2011 | | |
| | __/__/2011 | | |
| | __/__/2011 | | |
| Telefonlar: | __/__/2011 | | |
| EV: | __/__/2011 | | |
| IŞ: | __/__/2011 | | |
| Mobil 1 : | __/__/2011 | | |
| Mobil 2 : | __/__/2011 | | |

**Bestcomp Group:** **Alıcı:**

**İmza**______________ **Müştərinin imzası** ______________

**ƏLAVƏ 4.**

Bakı ş. "__" __________ 2011-ci il

Şagird və ya tələbə haqqında məlumat:

______________________________________________________________________________
(adı, soyadı və atasının adı)

______________________________________________________________________________
(oxuduğu tədris müəssisəsi)

______________________________________________________________________________
(yaşadığı və qeydiyyatda olduğu ünvan)

______________________________________________________________________________
(şəxsiyyət vəsiqəsi və ya doğum haqqında şəhadətnamə)

______________________________________________________________________________
(telefon və e-mail adresi)

**Bestcomp Group:** **Tələbə və ya şagird:**

**İmza______________** **Müştərinin imzası______________**